xanda isə əks hadisələr yaşanır. Həmin anlarda yaradıcı insanlarda elə dahiyanə fikirlər formalaşır ki, buna yalnız təəccüblənirlər: "Doğrudanmı bu mənəm?". İkinci tipdə olanlar istər poeziya, istərsə də dizayn işlərində inanılmaz orijinallıq nümayiş etdirirlər.

Dünyada məşhur olan bəzi insanlar biopolyar düşkünlükdən əziyyət çəkiblər. Məsələnin maraqlı tərəfi ondadır ki, bu onların gündəlik həyat tərzinə çevrilib və heç nədən şübhələnmədən adi qəbul ediblər. Bu sırada Lyudviq van Bethoveni, Virciniya Vulfu, Ernest Heminqueyi, İsaak Nyutonu, Cudi Harlend və Robert Şumanı misal çəkmək olar. Belə düşkünlər cəsarətli əsərlər yazmaqdan qorxmurlar. Sözlərini kökaltı deyil, açıq-aydın yazır, bir sözlə, eyham üsullarından yararlanmağı özlərinə sığışdırmırlar. Eyhamlı və ikibaşlı əsərlər yazanlar isə manikal-depressiv psixozlardır. Onlara elə gəlir ki, cəsarətli ifadələrlə bol əsərlər qələmə alsalar, elə indicə qapını döyüb ya fiziki təzyiqə məruz qoyacaq, ya da həbs edəcəklər. Beləliklə, hipomaniyaya yoluxanlar manikal-depressiv psixozlara gülürlər. Amma xəbərləri yoxdur ki, özləri də bir başqa cür xəstədirlər. Belə xəstəliklər yaradıcı insanların şəxsiyyətlərinin formalaşmasında öz izini qoyur.

Key Redfild Cemisonun "Alova toxunarkən: Manikal-depressiv psxioz və artistik çılğınlıq" əsərində yaradıcı insanların biopolyar, yoxsa təkpolyar şəxsiyyətinə malik olmalarını müsahibələri, məktubları, avtobioqrafiyalarına əsasən müəyyən edib. Dünyanın məşhur klinikalarının psixiatrları biopolyar düşkünlüklə yaradıcılıq arasında əlaqəni tamlıqla sübut edə bilmirlər. 2005-ci ildə Stenford universitetində aparılan araşdırmalar uşaqların istedadına əsasən təkmilləşmişdi. Uşaqların qarşısında fiqurlar düzüblər. Biopolyar düşkünlüyə malik uşaqlar sadə və simmetrik fiqurdan imtina edib mürəkkəb quruluşlulara üstünlük veriblər. Xarakterində heç bir pozğunluq müşahidə edilməyən uşaqlar isə sadə fiqurları götürüblər.

Jurnalist Kristofer Zar öz əsərində yazırdı ki, yaradıcı insan hansı sahədə çalışırsa-çalışsın, özünün dəliliyini qabarıq şəkildə göstərir. O, sübut edirdi ki, Çarlz Şults, Çarli Parker, Lenni Bryus, Mikelancelo, Madonna, Endi Uorhol, Emi Uaynhausun şəxsi acıları onları dahilik zirvəsinə qaldırıb. Şəxsi acılar isə çox adamın dahiliyinə yol açıb. Hələ də izahını tapmayan, beyin axını ilə zəngin "Uillis" əsərinin müəllifi Ceyms Coysun övladı şizofreniyadan əziyyət çəkib. Övladı yan otaqda qışqıranda, yazıçı ağlamamaq üçün bütün hisslərini əsərlərinə köçürüb. Məşhur fizik Albert Eynşteynin oğlu da psixi gərginlik içində qovrulub. Deyilənə görə bu ona atasından keçib. İngilis filosof neorealist, ateist, riyaziyyatçı, ictimai xadim Bertran Rasselin ailə üzvləri, yaxın qohumları arasında psixi pozğunluqdan əziyyət çəkənlər çox olub. Filosofun bibisi, dayısı, oğlu və nəvəsi də bu qəbildəndir. Psixiatrlar hesab edir ki, Uinston Çörçill, Vinsent van Qoq və Edqar Po da biopolyar düşkünlükdən əziyyət çəkib. Yaxud, Coan Qrinberq "Mən sizə heç vaxt qızılgüllü bağ söz verməmişəm" əsərində öz həyatını qələmə alıb. Sadəcə, qəhrəmanın adı dəyişdirilib. Çox sonralar məlum oldu ki, yazıçı ABŞ-ın Merilənd ştatının Rokvill şəhərindəki məşhur psixi pozğunluqdan əziyyət çəkənlərin xəstəxanasında müalicə alıb. O da aydınlaşdı ki, gələcəyin nasirinin müalicə həkimi dünyaca məşhur psixoanalitik Frid Fromm-Reyhman olub. 1981-ci ildə 2 psixiatr Coan Qrinberqin əsərini oxuyandan sonra bu nəticəyə gəldilər ki, o, dəli deyil, yalnız depressiya və somatik düşkünlükdən əziyyət çəkib. Romanda qəhrəmanın psixi xəstəliyi ilə yaradıcılığı arasındakı kontrast əksini tapıb. Qrinberq qəti şəkildə əmin idi ki, onun potensialı çiçəklənib. Amma bu onun psixi gərginliyi ilə ortaya çıxmayıb. Psixiatrlar isə bunun əksini söyləyirlər.

**Ədəbiyyat qəzeti.- 2017.- 6 may.- S. 31.**